AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə: 164-169
https://doi.org/10.59849/2664-5432.2026.2.164

Türkan ƏZİZZADƏ*

V-VII ƏSR KİLSƏ SALNAMƏLƏRİNDƏ ANANİYA YEPİSKOP TERMİNLƏRİ

XÜLASƏ

Cənubi Qafqazın, Van gölü vadisinin və Şimali Suriyanın kilsə salnamələrində Ananiya titulu yepiskoplar haqqında geniş məlumat verilir.

Həmin salnamələrdə göstərilir ki, Ananiya yepiskop adları ilahə Ana məbədinin kahinlərinin daşıdığı titullardır. Hansı katalikos və yepiskoplar əvvəlcə Musa peyğəmbərin Tövratını qəbul etmiş, sonra xristian dininə iman gətirmişlərsə onlar kilsə salnamələrində Ananiya adlandırılır.

Erməni kilsə salnamələrində Ananiya ilə yanaşı Anetsi titullu xristian din xadimlərinin adı çəkilir. Anetsi Ana nəslinin patriarxı deməkdir.

Ermənilər XIX əsrdən başlayaraq Ana kilsəsinin yepiskoplarının, keşişlərinin adını Anetsi və Anietsi formalarında yazmağa başladılar. Sözün kökü anadır.

Ermənilərin iddiasına görə ilahə Ananın adı Anait və ya Anahit olmuşdur. Əslində isə it, hit şəkilçiləri onların artırdıqları şəkilçilərdir.

Bu tədqiqat işində mənbələr əsasında sübuta yetirilir ki, ilahə Anaitin və Ananiya titullu yepiskopların adı prototürklərin Ana kultu ilə bağlıdır.

Açar sözlər: *kilsə salnamələri, yepiskop, Ana nəsli, ilahələr, İakov nəsli, Anahit*

Cənubi Qafqazın V-VII əsr kilsə salnamələrində Azərbaycanın tarixi coğrafiyasının tədqiqi üçün qiymətli məlumatlar vardır. Bu kilsə salnamələri əsasında ermənilər "Erməni coğrafiyası" adı altında əsərlər və xəritələr tərtib etmişlər.

Həmin coğrafiya əsərlərindən biri Şiraklı Ananiyanın və Musa Xorenlinin məlumatları əsasında tərtib edilmişdir.

Bu məqalədə müxtəlif illərdə tərtib olunmuş xəritə və əsərlər elmi tədqiqatın obyektinə çevrilir. Müxtəlif nəşrlərə istinadən sübuta yetirilir ki, ermənilər hələ XIX əsrin əvvəllərindən başlayaraq tarixi toponimlərimizi bəzən tərcümə etmiş, bəzən qismən saxtalaşdırmışlar.

Bu məqalədə ermənilərin Ananiya Şirakatsi adlandırdıqları Şiraklı Ananın məlumatları əsasında tərtib olunmuş toponimik məlumatlar elmi tədqiqatın obyektinə çevrilir [Ճիրակացու մատենագրությունք, s. 37-40]. Sübuta yetirilir

* AMEA Nəsimi adına Dilçilik İnstitutu, Qədim dillər və mədəniyyətlər şöbəsi, elmi işçi.
Email: turkanazizzade@gmail.com

ki, Sirak nəslinin adına –atsi şəkilçisi artırılmış, s səsi ş səsinə çevrilmişdir. Onların Şirak adlandırdıqları tarixi mahalın adı "Çıraq" olmuşdur.

Kilsə salnamələrində xristianlıqdan əvvəl İlahə Anaya sitayiş edən etnosun patriarxları yevrey mənbələrində Anapat adlanırdı. Ana nəsli xristianlığı qəbul edəndən sonra əvvəlcə Musa peyğəmbərin "Tövrat"ının tərəfdarı olan, sonradan xristianlığı qəbul edən yepiskoplar Ananiya adlandırılır.

Məqalədə Ananiya yepiskop adlarının etimologiyası izah olunur.

V-VII əsr kilsə salnamələrində Ananiya adlandırılan patriarxlar və yepiskoplar müxtəlif nəsillərdən olurdu. Həmin nəslin patriarxlarından biri Çıraq nəslindən olan Anadır.

Türk dillərində Çıraq şəklində yazıya alınan etnotoponim erməni tarixçilərinin əsərlərində Şirak, yunan tarixçilərinin əsərlərində Sirak formasında yazıya alınmışdır. Orta yunan fonetikasında "ç" səsi olmadığına görə çıraq etnotoponimini Sirak formasında yazırlar.

Çıraq Ön Asiyanın və Qafqazın qədim türk etnoslarından biridir. "Albaniya tarixi"ndə göstərilir ki, Çıraq nəslinin başçıları Babəkin tərəfini saxlayırdılar. Ərəblər Babəki əsir tutandan sonra Çıraq nəslinin başçılarını da Samirə şəhərinə aparıb orada qətlə yetirdilər [Albaniya tarixi 1993 s. 190].

Çıraq nəslinin adı Şirak formasında yepiskop Sebeosun (VII əsr) "İmperator İraklinin tarixi" əsərində də vardır. Müəllif burada göstərir ki, Suriyanın bir hissəsi qədimdə Şirak adlanırdı [Sebeos 1862, s.176]. Bu məlumat onu göstərir ki, Çıraq nəslinin bir hissəsi Cənubi Qafqazda, bir hissəsi isə Suriyanın şimalında yaşamışdır.

Şiraklı Ananiyanın hansı Çıraq nəslindən çıxması məlum deyildir. Məlum olan odur ki, o xristian dinini qəbul etmiş, yepiskop kimi öz dini icmasına başçılıq etmişdir. Azərbaycan ərazisində Çıraq nəslinin izləri Çıraqlı kəndlərinin və Çıraqlı dağının adında qalmışdır. Çıraqlı kəndinin biri Ağdam rayonu ərazisində yerləşir.

Ermənilərin Ananiya adlandırdıqları o yepiskoplara Ananiya deyilir ki, onlar əvvəlcə Tövratı qəbul etmiş olsunlar, sonra Tövratdan üz döndərib İsa peyğəmbərin təlimini qəbul etsinlər.

Coğrafi məlumatları ilə bizim tədqiqatın obyektinə çevrilən Ananiya Şiraklı da əvvəl yevreylər kimi Tövratın təlimində olmuş, sonra xristianlığı qəbul etmişdir. Ernst Renan "Xristianlığın ilk əsrlərinin tarixi. Antixrist" kitabında yazır ki, yalnız yepiskoplar yox, Ana nəslinin patriarxları da Ananiya titulu daşıyırdılar [Ренан IV s.158].

Ananiya politezim dövründə Ana nəslinin patriarxlarının daşıdığı titul idi. Onlar Suriyada Aralıq dənizi sahillərinə yaxın yerdə Ana məbədləri tikmişdilər və orada İlahə Anaya sitayiş edirdilər. Yəhudi tarixçilərinin yazdığına görə Ana məbədinin kahinləri qılınc və təbərzinlə silahlanırdılar. Onlar ayin zamanı bədənlərini təbərzinlə kəsir və öz qanlarını İlahə Ananın bütünə çiləyirdilər (Viquru 1897, s.303).

İlahə Ana Ön Asiyanın qədim iltisaqi dilli etnoslarının mifik düşüncəsində doğum, sevgi, himayəçilik ilahəsi olmuşdur. Onun ən müqəddəs funksiyalarından biri yeni doğulan uşaqları himayə etmək olmuşdur.

İnsanlar cahiliyə dönəmində yeni doğulan uşaqları İlahə ananın məbədinə aparar və məbəddə kahinlər ona dua oxuyardılar. İnsanlar o zaman inanardılar ki, İlahə Ana hansı uşağı himayəyə götürübsə o uşaq xəstələnsə də ölməz, düşmən onu yaralasa da yaraları sağalar [Raqozina 1902, s. 481].

Ana eyni zamanda yalnız bir neçə patriarxın adı deyildi. İlahə Anaya sitayiş edən etnosların adı idi. İlahə Anaya sitayiş edən etnoslar özlərini ana ilə yanaşı Ane, Ene, Eney, Anakli də adlandırırdılar. Eney, Anakli, Anak, Anaş bütün bunların üçü də İlahə Anaya sitayiş edən nəsillərdir. [Кондаков 1904, s. 148, Архимандрит 1883, s.4].

İlahə Anaya sitayiş edən etnoslardan biri özünü Eney adlandırırdı. Biz Eneyi Publi Maron Vergilinin "Eneida" poemasından tanıyırıq. Eney də İlahə Anaya sitayiş edən patriarxlardan biri olub Troya hökmdarı Piramın tərəfində vuruşurdu. Troya yunanlar tərəfindən işğal olunandan sonra Eney Ana nəslinin sağ qalan qoşunları ilə birlikdə Siciliya adasına, oradan da İtaliyaya köçdü və orada yeni bir dövlət qurdu [Vergili Eneida 1933, s. 23- 26].

İlahə Anaya uyğun olaraq qədim Ellada panteonunda Afrodita, italiya panteonunda Venera İlahələri vardır. Onlar da İlahə Ana kimi yeni doğulan uşaqları himayə edirlər. Bir- birini sevən gənc oğlan və qızları fəlakətdən qoruyurlar [Vergili 1933, s. 23, 367; qenrex qrenç 1907, s.224]. İlahə Ana xristianlıqdan çox qabaq H'Ay nəslinin panteonunda da var idi. Qədim erməni tarixçiləri İlahə Anarı Anait, bəzən də Anahit adlandırırlar.

Ermənilərin Ananiya Şirakatsi adlandırdıqları görkəmli elm və din xadimlərinin əsl adı Çıraqlı Ananiya olmuşdur. Erməni tarixçiləri Çıraq nəslinin adını Şirak, Yunan tarixçiləri Sirak kimi yazırlar. Çıraq və ya Çıraqlı Qafqazın və ya Ön Asiyanın qədim türk etnoslarından biridir. Quba şəhəri yaxınlığında Çıraq qalasını onlar inşa etmişdir. Ermənilərin Anahit və ya Anahiti adlandırdıqları İlahənin qədim mənbələrdə adı Ana olmuşdur. Ana məbədləri xristianlıqdan çox əvvəl Şumerdə, Fələstində və Suriyanın şimalında tikilmişdir.

Antik dövrün yunan, latın dövrü tarixçilərinin əsərlərində İlahə Anaya uyğun olan İlahələr Afrodita, Artemida, Venera və s. adlandırılır. Publi Maron Vergili yazır ki, Eney atası Anxizi Siciliya adasında dəfn etdi. Onun qəbri üstündə mərasim keçirtdi. Sonra əsgərləri ilə birlikdə İtaliyaya gəldi.

Tiber çayının Aralıq dənizinə töküldüyü yerdə qurultay keçirdi. Həmin qurultayda nəzərə alındı ki, Eney Latının qızı Lavinanı alıb yeni dövlət qursun [Eneida 1933, s. 14, 19].

Roma dövrü İtaliya Tarixçiləri yazırlar ki, "Eneida" əsərinin ilk variantı "Aeneits" olmuşdur. Aeneits yunan, Eneida latın dilində ilahə Anaya tapınanlar deməkdir. Troya qəhrəmanı Eneyin adı Ana teonimi ilə bağlıdır. Ellada dövrü miflərinə görə ilahə Ana yalnız sevənləri və doğulan uşaqları himayə etmirdi. Həm

də ən gözəl və döyüşkən oğlanları bəd ruhlardan qoruyurdu. [Норов 1828, səh 195-196]

Ellada mifinə görə ilahə Ana, Venera, Afrodita ilə birlikdə Eneyi kişilərin ən gözəli seçirlər. Bu ayin bitəndən sonra onun çiyninə ağ bars dərisi salırlar. Eney ömrünün sonuna qədər çiynində bars dərisi gəzdirir. Bu o deməkdir ki, prototürklərin Ana, yunanların Afrodita, latınların Venera adlandırdıqları ilahə onu qoruyur [Вагнер 1901, s.134; Eneida 1933, s.23]. Eneydən başqa ilahə Ana troya hökmdarı piramın oğlu Parisi də qoruyurdu. Paris də Eney kimi çiynində Bars dərisi gəzdirirdi (Вагнер 1901, s. 131).

Gürclərin böyük şairi Şota Rustavelinin "Pələng dərisi geyinmiş pəhləvan" poemasında Kema, yəni aşiq-vassal titulu var. Aşiq- vassal titullu Tariel Troya qəhrəmanı Eney kimiçiynində bars dərisi gəzdirir. Əsər xristianlıq dövründə yazılsa da, ilahə Ananın sevən oğlanları qorumasının burada izi qalmışdır.

Tariel Eney və Paris kimi aşiq olduğu qızı göylərin mələkləri kimi müqəddəs tutur. Asxaxanov və Platon İoseliani yazırlar ki, şair bu sujeti Aran folklorundan götürmüşdür. Onlar fransız akademiki Mari Brosseye istinadən yazırlar ki, bu sujetdə və Aran folklorunda ilahə Anaya sitayişin izləri qalmışdır [Cəfərsoy 2014, s.28]. İlahə Ana islamiyyətdən qabaq türk panteonunda da var idi. Qədim türk panteonunda ilahə Ana Ana, Ama, Ene, Eney adlandırılır.

Qədim türk tayfalarından biri olan Utiqurların Anaqay adlı tayfa başçısı var idi. Həmin patriarx eranın VI əsrində yaşamışdır [Həsənov 2005, s.151]. Bundan başqa Başqurdların güclü tayfalarından biri Eney adlanırdı. Eney tayfası Kazan şəhəri ətrafında, Volqa və Kama çaylarının qovuşduğu yerdə ruslarla qanlı döyüşlər aparırdı. Həmin Eneyin nəsli islamiyyətdən qabaq ilahə Anaya sitayiş edirdi [Кузеев I. 1957 s.57]. İlahə Ananın adına Anak formasında xristianlıqdan əvvəlki Çuvaş panteonunda rast gəlirik. Onlar ilahə Anaya sitayiş edirdilər. Anak, Anaklı ilahəyə Anaya sitayiş edən nəsil deməkdir (Булатов 1971, s.81). Qumuq dilində isə mağaraya Ana, mağarada yaşayan qədim əcdadlara Anak deyilirdi. [СМОМПК I. XVII, 1893, s.28] Hunlar Anak adlandırdıqları mağaralarda Ana əcdadlara və göylərə qurban kəsərdilər (Heyət 1993, s.57).

Qafqazda xristianlığı yayan xristian müdriklərdən biri Qriqorinin atasının adı Anak olmuşdur. O, Sasani hökmdarı döyüşdə öldürülmüşdür. Ermənilər iddia edirlər ki, Qriqori ermənidir. Halbuki o da erməni deyildir. Parfiyalıdır. Parfiyalı Anakın oğludur [Егише 1971, s. 42]. Parfiyanın Anak nəsli xristianlıqdan əvvəl hələ ermənilərı özlərinə tabe etməmiş ilahə Anaya sitayiş edirdilər. Xristian - gürcü salnaməçiləri xristianlıqdan əvvəl ilahə Anaya sitayiş edən nəsilləri Aneli adlandırırlar. V.Q. Dondua yazır ki, Aneli soyadlı gürcü yepiskopları Ana nəslindən olanlar deməkdir [Дондуа 1967, s.76]. Maraqlıdır ki, -li Azərbaycan dilinə aid şəkilçidir. L.M.Meliksetbekova görə qədim iver dualarında adı çəkilən Aneli elə Anaitdir. [Меликсетбеков, 1914 s.18] Bu məlumat bunu göstərir ki, gürcülər Ana nəslinin adını Aneli şəklində saxlamış, ermənilər isə Anetsi, Anait şəklinə salmışlar.

ƏDƏBİYYAT

1. Cavad Heyət. Türklərin tarix və mədəniyyətinə bir baxış. Bakı, Azərnəşr, 1993
2. Cəfərsoy İlhami. İber və H`Ay folklorunda türk mifik təfəkkürünün izləri. Bakı, 2014.
3. Musa Kaqankatuklu. Albaniya tarixi. Bakı, Elm.1993.
4. Zaur Həsənov. Çar skiflər. Bakı, 2005
5. Авраам Норов. Путешествие по Сицилии. Т. 1, СПб, 1828
6. Архимандрит Иероним. Библейская археология, т.1, СПб, 1883
7. Булатов А.Б. Личные имена у древних булгар. Ономастика Поволжья. Вып. 2, Горкий, 1971.
8. Вергилий Публий Марон. Энеида. М.- Л., 1933
9. Вигуру Ф. Руководство к изучению Библии. Ветхий завет. М, 1897
10. Вильгелм Вагнер. Эллада. СПб, 1901.
11. Дондуа В.Г.Историческая разыскания. т. 1, Тбилиси, Мецниереба, 1967.
12. Егише. О Вардане и войне армянской. Ереван.1971
13. Кондаков Н.П. Археологические путешествие по Сирии и Палестине. СПб, 1904
14. Кузеев I 1957 – Кузеев Р. Г. Очерки исторической этнографии Башкир. Т. I Уфа, Башкирский филиал АН СССР, Институт истории, языка и литературы, 1957.
15. Меликсетбеков Л.М. К вопросу о настоящем имени просветительницы Грузии. Тифлис, 1914
16. Рагозина З.А. История Ассирии. СПб, 1902.
17. Себеос. История императора Иракла. СПб, 1862.
18. Эрнст Ренан 2750 - Эрнст Ренан. История первых веков христианства. Антихрист. т. IV, СПб . (nəşr ili göstərilməyib).
19. Անանիա Ծիրակացու մատենագրությունը. Երևան, 1944.

ANANIA BISHOPICAL TERMS IN CHURCH CHRONICLES OF THE X-XII CENTURIES

SUMMARY

Church chronicles of the South Caucasus, the valleys of Lake Van and northern Syria contain extensive information about bishops with the title of Ananias.

These chronicles indicate that the names of the bishops of Ananias were the titles of the priests of the Church of the Mother of God. Those catholicoses and bishops who first accepted the Torah of the prophet Moses and then converted to Christianity are called Ananias in church chronicles.

Along with Anania, Christian clergymen named Anetsi are mentioned in Armenian church chronicles. Anetsi means the patriarch of the Mother's family.

Beginning in the 19th century, Armenians began to write the names of bishops and priests of the Mother Church in the forms Anetsi and Anietsi. The root of the word is mother.

According to the Armenians, the name of the goddess Ana was Anait or Anahit. In fact, it and hit suffixes are the suffixes they add.

In this study, based on sources, it is proved that the names of the goddess Anaitin and the bishops with the title of Ananias are connected with the Mother cult of the Proto-Turks.

Key words: *church chronicles, bishop, Mother's generation, goddesses, Jacob's generation, Anahit*

АНАНИЙСКИЕ ЕПИСКОПСКИЕ ТЕРМИНЫ В ЦЕРКОВНЫХ ЛЕТОПИСЯХ V-VII ВЕКОВ

РЕЗЮМЕ

Церковные хроники Южного Кавказа, долины озера Ван и северной Сирии содержат обширные сведения о епископах с титулом Анания.

Эти летописи указывают, что имена епископов Анании были титулами, которые носили священники храма Божией Матери. Те католикосы и епископы, которые сначала приняли Тору пророка Моисея, а затем обратились в христианство, в церковных хрониках именуются Ананиями.

Наряду с Ананией в армянских церковных летописях упоминаются христианские священнослужители по имени Анеци. Анеци означает патриарх поколения Матери.

Начиная с 19 века, армяне стали писать имена епископов и священников Матери-Церкви в формах Анеци и Аниеци. Корень слова – мать.

По мнению армян, имя богини Аны было Анаит или Анахит. На самом деле суффиксы ит, хит – это суффиксы, добавленные ими.

В данном исследовании на основе источников доказывается, что имена богини Анаитины и епископов с титулом Анания связаны с культом Матери прототюрков.

Ключевые слова: церковные хроники, епископ, род Матери, богини, род Иакова, Анахит.